Azad Azərbaycan 27 iyun.-2023.-S.4

## Redaksiyadan

**Xalq şairi, xalqımızın sevimlisi Nəriman Həsənzadənin Ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə həsr etdiyi - "Mənim ədəbi taleyim-Zamanla, tarixlə görüş" adlı kitabını bu sayımızdan başlayaraq qəzetimizdə çap edirik. Bu kitab təkcə ulu öndər Heydər Əliyenin yox, həm də böyük dövlət xadimi, Azərbaycan üçün çox işlər görmüş Nəriman Nərimanovun və elə Xalq şairi Nəriman Həsənzadənin özünün də həyatına həsr olunub. Ümumiyyətlə, yaxşı, xeyirxah insanların bir zamanlar Nəriman Həsənzadəyə və Azərbaycan ədəbiyyatına elədyi köməkliklər bu kitabda özünün gözəl əksini tapıb.**

**Əziz oxucular inanırıq ki, bu yazılar sizin xoşunuza gələcək və Nəriman Nərimanova çamur, çirkab atan adanlara da bir görk və layiqli cavab olacaq.**

# Mənim ədəbi taleyim - zamanla, tarixlə görüş

## *(Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə)*

***(Əvvəli ötən saylarımızda)***

Respublika Dövlət Mətbuat Komitəsinin sədr müavini işlədiyim zaman nəşriyyat məsələlərinə baxırdım.

Azərbaycanda ilk dəfə Tehran mətbəəsilə müştərək şəkildə Heydər Əliyevin "Səsli kitab"ını nəşr etdim və onun bir neçə nüsxəsini özünə də göndərdim. Dünya azərbaycanlıları üçün nəzərdə tutilan lent yazıları bir neçə kasetdə təqdim olunurdu. Hər kəs, Ulu Öndərin öz səsilə çıxışlarına qulaq asa bilərdi.

Biz bu təcrübəni davam etdirmək istəyirdik.

Heydər Əliyevin köməkçisi Tariyel Ağayevdən öyrəndim ki, "Səsli kitab" çox xoş təsir bağışlayıb.

Mətbuat Komitəsinin adı sonralar dəyişdirilib, Mətbuat və İnformasiya Nazirliyi olan vaxtlarda da, nazirimiz deputat seçildiyi üçün, mən naziri əvəz edirdim.

Başqa nəşrlərlə yanaşı, mətbəələri ikinövbəli etməklə bir ay iyirmi gün ərzində 58 adda dərslik buraxdıq. Baş nazirin müavini və bizim nazirliyin kuratoru hörmətli Xalq yazıçısı Elçin müəllim dərsliklərin sərgisini görəndən sonra mənim işimi "möcüzə" adlandırmışdı. Bu, o vaxt böyük dayaq idi.

Həmin dərsliklərin nəşrinə Nazirlər Kabineti pul buraxmadı. Yarım milyondan artıq pulu mən doğmalarımdan borc alası oldum. Sonra əlbəttə, dövlət ödədi. Amma mən o dərsliklərin nəşrini sonraya saxlasaydım, heç biri çıxmamalıydı. Şagirdlər də əliboşda qalmalıydı. Mən də Mətbuat və İnformasiya nazirini əvəz edən bacarıqsız müavin kimi töhmət alıb Heydər Əliyevin yanında gözükölgəli olmalıydım. Əlbəttə, bu olmadı. Yaşar Qarayev, Nüşabə Araslı, Həmid Məmmədzadə, Azadə Rüstəmova kimi alimlərin - gərgin əməyilə Füzulinin "Seçilmiş əsərləri"ndən ibarət 13 adda kitabını çapa hazır vəziyyətə gətirdik. Rəssam Gündüz Əlizadə yeni rəsmlər çəkdi. Təəssüf ki, o kitabların nəşrini sonra başqa nəşriyyat öz adına çap elədi. Alimlərdən və rəssamdan üzr istəyəsi oldum.

Mətbuat və İnformasiya Nazirliyinin aparıcı nəşriyyat redaktoru Güldanə Pənahovanın və M.F.Axundov adına Mərkəzi Milli Kitabxana işçilərinin yaxın köməkliyilə tərtib etdiyim "Heydər Əliyev. Ədəbiyyat və incəsənət haqqında". İkicildlik kitabın əlyazmasını çap etdirmək məqsədilə yeni köməkçi Tariyel müəllimə göndərdim.

Mənimlə telefon danışığında o dedi ki, Heydər Əliyev kitabı bəyənir və çapına etiraz etmir. Amma əlyazmamı geri qaytarmadılar.

Bu arada infarktdan xəstəxanaya düşdüm.

Əsərin məndə olan ikinci kserosurətini isə xəstəxanadan qayıdandan qayıdandan, iş yerində tapmadım...

Mənim xahişimlə əsərin "Azərbaycan dili" bölməsinə Nizami Xudiyev, "Ədəbiyyat" bölməsinə Anar, "İncəsənət" bölməsinə isə Tofiq Quliyev ön söz yazmışdılar.

***

İnfarkt keçirəndən sonra vaxtaşırı xəstəxanada müalicə olunurdum. Məni telefona çağıran şəfqət bacısı dedi ki, Prezident Aparatındandı. İctimai-siyasi şöbənin müdiri Fatma Abdullazadənin adını çəkdi.

Cənab prezident məni mərhum Zərifə xanımın xatirəsinə həsr olunmuş mərasimə dəvət edirdi.

Fatma xanım Baş redaktor olduğu "Azərbaycan qadını" jurnalının yenicə çapdan çıxan iki nüsxəsini mənə, xəstəxanaya göndərmişdi. Mərhum Zərifə xanımın xatirəsinə həsr etdiyim şeir də buradaydı. Jurnalları minnətdarlıqla alıb oxudum.

Hələ 1985-ci ilin avqust ayında Heydər Əliyevlə Moskvada, "Novo-deviçye" qəbiristanlığında Zərifə xanımın məzarı üstə görüşəndə, mən bi şeiri ona oxumuşdum. O da əlyazmamı alıb qoltuq cibinə qoymuşdu.

Bizim burada görüşümüz isə tamam təsadüfən olmuşdu. Mən axşam üstü saat 6 radələrində bir dəstə qızılgüllə məzarı ziyarətə gəlmişdim. Bir saat sonra Ulu öndər təsadüfən gəlib oraya çıxdı. Biz gözlənilmədən, beləcə görüşdük.

Orada aldığı əlyazmamı ilahi məhəbbətinin xatirinə düz on bir il saxlamış və indi "Azərbaycan qadını" jurnalına çapa vermişdi.

Şeiri kiçik ixtisarla əlavə edirəm:

### ƏBƏDİYYƏT

*Zərifə Əliyevanın xatirəsinə*

Sükut içindədi muzey qəbristan,
heykəllər, türbələr durur yan-yana.
Daim yar aşıqdı torpağa insan, -
burda məzarda da, sağlığında da.

...Budur təbiətin sonu, əzəli,
Itir gör insanın güzarı harda?
Yatır eldən uzaq bir el gözəli,
beşiyi hardadı, məzarı harda?!

Bu necə dibçəkdi, bu necə çiçək,
torpaqda gül bitib torpaqdan ayrı.
Yarpağı gün döyər, meyvəni külək,
Bağban uzaq düşsə bir bağdan ayrı.

Gözü yolda qaldı doğma ellərin,
o şəfa paylayan loğman qızıydı.
O bizim ən böyük Vətənpərvərin
dünyada yeganə bir dünyasıydı.

O, yüksək kürsüdən nitq eləyəndə,
bu, yerdə oturub alqışlayardı.
Xalqın şərəfinə o söz deyəndə,
bu ona səadət bağışlayardı.

...Dağlıq Qarabağda şeir məclisi!
Vaqif günləriydi... başqaydı dağlar.
Mən də şeir dedim, sevirdi bizi,
özü tanıyırdı, tanıtmırdılar.

Gör kimi itirdik, ey Ulu dostum,
Axtar indən belə qışda, baharda.
Bir dünya tapmışdım, taleyin onu
bir qarış torpağa dəyişdi, harda?!

Gedəni saxlamaq olsaydı mümkün,
bir el yeriyərdi bəlkə də o gün.
Məlhəmi olsaydı gül-çiçək ətri,
çəmənlər dil açar, yoxdu, - deməzdi.
Ürək istəsəydin, səndən ötəri,
heç kəs ürəyini əsirgəməzdi.

Su gərək olsaydı, Arazla Kürdən -
Araz, Kür o səmtə axardı hökmən.
Od gərək olsaydı, günəşdən əgər,
töhfə gətirərdi günəşli əllər.

O yatır qoynunda əbədiyyətin,
məzarı dünyadı, dünyası məzar.
Eşqin ürəyində yaşayır sənin,
bir eşqi bir ürək yüz il yaşadır.

Yanında olmadım, ağır günündə,
qəminə şərikəm, sonsuzdur o qəm!
Yalnız eşq önündə, torpaq önündə
əyilən o başa mən baş əyirəm!

*Moskva, noyabr, 1985*

***(Ardı var)***



**Nəriman HƏSƏNZADƏ**